**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2026.1.18**

# ZƏFƏRƏ GEDƏN YOL: İŞĞAL OLUNMUŞ TORPAQLARIN AZAD EDİLMƏSİ

# THE ROAD TO VICTORY: LIBERATION OF THE OCCUPIED TERRITORIES

**Hacıfəxrəddin SƏFƏRLİ*, Samirə TURAN****

## XÜLASƏ

Məqalədə İkinci Qarabağ müharibəsindən, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad olunmasından bəhs olunur. Qeyd edilir ki, Azərbaycan ordusunun 27 sentyabr 2020-ci ildə başladığı əks-hücum əməliyyatları nəticəsində başlanan və 44 gün davam edən müharibə nəticəsində torpaqlarımız işğaldan azad olundu. 10 noyabr 2020-ci ildə imzalanan Bəyannamə ilə Ermənistan məğlubiyyətini etiraf etdi. Azərbaycan Respublikası Prezidentinin 03 dekabr 2020-ci ildə imzaladığı Sərəncama əsasən Şuşa şəhərinin azad olunduğu 08 noyabr Zəfər Günü kimi bayram edilməyə başladı.

**Açar sözlər:** *Azərbaycan, Naxçıvan, Ermənistan, müharibə, ordu, zəfər.*

## ABSTRACT

This article examines the Second Karabakh War and the liberation of Azerbaijani territories that had been occupied by Armenia. It notes that the counter-offensive operations launched by the Azerbaijani army on September 27, 2020, led to a 44-day war, as a result of which the territories were freed from occupation. The Declaration signed on November 10, 2020, confirmed Armenia's defeat. Pursuant to the Order signed by the President of the Republic of Azerbaijan on December 3, 2020, November 8 – the day of the liberation of Shusha – began to be celebrated as Victory Day national holyday.

**Keywords:** *Azerbaijan, Nakhchivan, Armenia, war, army, victory.*

## GİRİŞ

Rusiya ilə Qacarlar dövləti arasında 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsinin, Rusiya ilə Osmanlı dövləti arasında 1829-cu ildə bağlanan Ədirnə müqaviləsinin şərtlərinə əsasən və bundan sonra XIX yüzillik boyu İrandan və Osmanlı dövlətindən Azərbaycan ərazisinə (əsasən Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazisinə) köçürülən ermənilər öz yerlərini bərkitdikdən sonra Azərbaycana qarşı ərazi iddialarına başladılar. Öz məqsədlərinə çatmaq üçün onlar XX yüzillikdə bir neçə dəfə faciələr törətdilər, xalqımıza qarşı soyqırımılar, deportasiyalar həyata keçirdilər. Ancaq görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I dövründə (1969-1982-ci illərdə) onlar ölkəmizə qarşı ərazi iddiaları qaldıra bilmədilər. XX yüzilliyin 80-ci illərinin ikinci yarısında SSRİ-də ortaya atılan "yenidənqurma" şəraitində yaranmış vəziyyətdən istifadə edərək ermənilər yenidən fəallaşdılar. Ancaq Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev həmin vaxt SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi yüksək vəzifə tutduğundan və Sovet İttifaqı

* Naxçıvan Dövlət Universiteti, e-mail: seferli949@mail.ru,
ORCİD: 0009-0007-1665-8906
** Naxçıvan Dövlət Universiteti, e-mail: safarovasamire323@mail.com
ORCİD: 0009-0001-6120-9794

Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olduğundan onlar bu böyük şəxsiyyətin həmin iddiaların qarşısını qətiyyətlə alacağını bildiklərindən susmağa məcbur oldular. Onlar özləri də etiraf edirdilər ki, neçə ki, Heydər Əliyev Kremldədir, Azərbaycana qarşı ərazi iddiaları qaldırmaq mənasızdır. Ona görə də onlar Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması üçün hər cür alçaq hərəkətə əl atır, məqsədlərinə çatmaq üçün durmadan çalışırdılar və məqam gözləyirdilər. Belə bir məqam dahi şəxsiyyət Heydər Əliyev 1987-ci ilin oktyabr ayının 21-də tutduğu vəzifədən və Siyasi Büro üzvlüyündən istefa verdikdən sonra yarandı. Həmin vaxt Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olan K.Dəmirçiyan demişdi: "Biz ən əsas işi bacardıq, Qarabağ hərəkatına qədər Əliyevi yıxdıq. Bu, çox mühüm idi" [Hacıyev, 2014, s. 63]. Beləliklə, ermənilər öz arzularını gerçəkləşdirmək üçün dərhal qondarma Dağlıq Qarabağ problemini ortaya atdılar.

Dağlıq Qarabağ problemi isə Azərbaycan xalqını fəlakətlərə sürüklədi, böyük faciələr baş verdi. Ölkə labüd uçurum qarşısında dayandı. Vətəndaş müharibəsi, Azərbaycan dövlətçiliyinin itirilməsi təhlükəsi reallaşmaq üzrə idi. Ona görə də, öz nicatını həmin vaxt Naxçıvan MR Ali Məclisinin Sədri olan Heydər Əliyevdə görən Azərbaycanın qabaqcıl insanları, bütövlükdə xalq bu görkəmli şəxsiyyətin ölkə rəhbərliyinə gətirilməsinə nail oldu. Müharibə şəraitində ölkədə ictimai-siyasi vəziyyəti bərpa etməyin, müstəqil Azərbaycan dövlətini qurmağın, iqtisadiyyatı inkişaf etdirməyin, işğal olunmuş torpaqları azad edəcək güclü ordu yaratmağın mümkün olmadığını bilən Heydər Əliyev 10 may 1994-cü ildə Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında müqavilə bağlanmasına nail oldu. O, yaranmış imkandan səmərəli istifadə edərək ölkə iqtisadiyyatını yüksək səviyyədə inkişaf etdirdi, müstəqil Azərbaycan dövlətini qurdu, yaratdı, onu inkişaf etmiş dövlətlər sırasına çıxardı, ermənilər tərəfindən işğal edilmiş ərazilərimizi müharibə yolu ilə azad edə biləcək güclü və müasir ordu yaratdı.

Ümummilli liderin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycan dövlətini və ordunu daha da gücləndirdi, onu ən müasir silahlarla təchiz etdi və dünyanın ən güclü ordularından birinə çevirdi. Ümumiyyətlə, Prezident İlham Əliyevin fəaliyyətində həyatın bütün sahələrinə, o cümlədən orduya diqqət xüsusi yer tutur. Ümummilli lider Heydər Əliyevin dediyi "Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik" sözlərini fəaliyyətində rəhbər tutan Ali Baş Komandan İlham Əliyev itirilmiş ərazilərimizi işğaldan azad edə biləcək ordu yaratdı.

2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin iyul ayında Tovuz istiqamətində baş verən döyüşlər Azərbaycan ordusunun gücünü və nəyə qadir olduğunu göstərdi. Ancaq bu döyüşlərdə ciddi məğlubiyyətə uğramasına baxmayaraq Ermənistan rəhbərliyi yenə də təcavüzkar siyasətindən əl çəkmədi. Ermənistan ordusu yenə də atəşkəsi pozmaqda davam edir, cəbhənin müxtəlif istiqamətlərində təxribatlar törədirdilər. Həmçinin Ermənistan rəhbərliyi müdafiə naziri D.Tonoyanın yeni müharibə ilə yeni ərazilərin ələ keçirilməsi fikrindən əl çəkmir, öz xəyallarını gerçəkləşdirməyə çalışırdılar.

Ermənistan rəhbərliyi bu xülyasını gerçəkləşdirmək üçün atəşkəsi pozmaqla Azərbaycan tərəfini təxribatlara çəkmək istəyirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq Ermənistan tərəfi bəd əməllərindən əl çəkmir, yeni-yeni sayıqlamalarla Azərbaycan xalqının səbir kasasını daşdırırdı. Heç bir dövlətçilik təcrübəsi olmayan, idarəçilikdən və diplomatiyadan baş çıxara bilməyən Ermənistanın Baş naziri Nikol Paşinyan isə daha çox ifrata varır, Azərbaycanla danışıqlar prosesinə Dağlıq Qarabağın separatçı rejiminin nümayəndələrini də qoşmağa çalışır, bununla da danışıqların formatını dəyişmək istəyirdi. O tez-tez Dağlıq Qarabağa səfərlər edir, tədbirlərdə iştirak edir, sərsəm bəyanatlar verir, bununla da vəziyyəti daha da gərginləşdirirdi. 2019-cu ilin avqust ayında Dağlıq Qarabağda təşkil olunan ümumermənі oyunlarının açılışında olarkən Nikol Paşinyan indiyədək heç bir Ermənistan rəhbərinin risk edib söylə-

mədiyi "Qarabağ Ermənistandır, nöqtə" bəyanatı ilə çıxış etdi. Bununla da Azərbaycanla danışıqlar prosesinə ciddi zərbə vurdu, beynəlxalq təşkilatlar qarşısında özünün nə qədər zəif və danışığını bilməyən bir siyasətçi olduğunu göstərdi.

Öz çirkin niyyətlərini həyata keçirmək üçün Ermənistan ordusu 27 sentyabr 2020-ci ildə, səhər saat 06:00-da Tərtər rayonunun Qabanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini və hərbi hissələrini artilleriya, minaatanlar və digər silahlarla intensiv atəşə tutmağa başladılar. Qəfil atəşlər nəticəsində Azərbaycanın mülki əhalisi və infrastruktur obyektləri ciddi zərər çəkdi. İnsanlar həlak oldu və yaralandı. Ermənistan ordusunun hücumunun qarşısını almaq, mülki əhalinin, dinc sakinlərin təhlükəsizliyini təmin etmək məqsədi ilə Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən Azərbaycan ordusunun bütün cəbhə boyu sürətli əks-hücuma başlaması haqqında qərar qəbul edildi. Beləliklə, 27 sentyabr 2020-ci ildə Azərbaycan ordusunun əks-hücuma keçməsi ilə İkinci Qarabağ müharibəsi başlandı. Azərbaycan Silahlı Qüvvələri elə həmin an əks-hücum əməliyyatları ilə düşmənə ciddi zərbələr yendirdi. Hərbi əməliyyatların başlanması ilə Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda isə qismən səfərbərlik elan olundu. Əks-hücum əməliyyatları ilə Ermənistan rəhbərliyinin keçilməz hesab etdiyi müdafiə xətti dağıdıldı, Azərbaycanın rəşadətli ordusu istehkamları keçərək işğal olunmuş ərazilərin düşməndən azad edilməsinə başladı. İşğaldan azad olunmuş ərazilər haqqında ilk məlumatlar əhaliyə oktyabr ayının 3-də çatdırıldı.

Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 27-dən başlanan və 44 gün davam edən əks-hücum əməliyyatları nəticəsində işğal altında olan 5 şəhər, 4 qəsəbə, 286 kənd işğaldan azad edildi. 4 oktyabr 2020-ci ildə Cəbrayıl şəhəri, 9 oktyabrda Hadrut qəsəbəsi, 17 oktyabrda Füzuli şəhəri, 20 oktyabrda Zəngilan şəhəri, 21 oktyabrda Mincivan qəsəbəsi, 22 oktyabrda Ağbənd qəsəbəsi, 26 oktyabrda Qubadlı şəhəri, 8 noyabrda Şuşa şəhəri, 9 noyabrda Bartaz qəsəbəsi və həmin döyüşlər zamanı çoxlu sayda yaşayış məskənləri düşməndən təmizləndi.

Noyabr ayının 8-də Azərbaycanın mühüm mədəniyyət mərkəzlərindən olan Şuşa şəhərinin, onun ardınca çoxlu yaşayış məskəninin azad olunmasından sonra Ermənistan tərəfinin onsuz da ağır olan vəziyyəti daha da ağırlaşdı. Ona görə də noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin hərbi əməliyyatların dayandırılması və atəşkəs haqqında bəyanat imzaladılar [*Azərbaycan*, 2020, 11 noyabr]. Beləliklə, 2020-ci il sentyabrın 27-dən başlanan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi dayandırıldı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev noyabrın 10-da, bəyanatın imzalanmasından az sonra Azərbaycan xalqına müraciət etdi. Müraciətdə bəyanatın mətni və mövcud reallıqlar xalqa çatdırıldı. Müzəffər Ali Baş Komandan vurğuladı ki, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da – Dövlət Bayrağı Günündə bizim növbəti hərbi qələbəmiz olub. Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam [Əliyev, 2024, s. 397].

Bəyanatın tələblərinə uyğun olaraq noyabr ayının 25-də Kəlbəcər rayonu (bəyanatda Kəlbəcər rayonunun qaytarılması 15 noyabrda nəzərdə tutulsa da, Ermənistanın Rusiya vasitəsi ilə xahişinə əsasən bu müddət Azərbaycanın razılığı ilə 10 gün uzadıldı), dekabrın 1-də isə Laçın rayonu, bütövlükdə təxminən 5 min kvadrat kilometr ərazi heç bir güllə atılmadan və itki verilmədən, sülh yolu ilə Azərbaycana qaytarıldı. Burada bir məqama diqqəti cəlb etmək istərdim. Belə ki, artıq Kəlbəcərdə, Laçında və başqa dağlıq ərazilərdə qar yağmağa başlamışdı. Qış yaxınlaşırdı. Əgər müharibə davam etsəydi, Kəlbəcərin və Laçının azad olunması uğrunda döyüşlər zamanı Azərbaycan ordusu

hücum edən tərəf olduğu üçün çoxlu itki verə bilərdi. Ona görə də, heç bir güllə atılmadan bu rayonların azad edilməsi Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yüksək diplomatik bacarığının nəticəsi kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1 dekabr 2020-ci ildə xalqa bir daha müraciət etdi. Müraciətdə Prezident İlham Əliyev müharibənin yekunları ilə əlaqədar Azərbaycan xalqına məlumat verdi. Həmçinin Prezident 44 günlük müharibə ərzində Ermənistan ordusunun itkilərini xalqa çatdırdı [Azərbaycan, 2020, 2 dekabr]. Ali Baş Komandan bu itkiləri xalqa çatdırdıqdan sonra qeyd etdi ki, "Bunlar deməyə əsas verir ki, Ermənistan ordusu yoxdur, məhv etmişik. Bu ordu onilliklər ərzində yaradılırdı. Bu orduya silahlar, sursatlar, ən müasir texnika verilirdi, özü də pulsuz, bunu hər kəs bilir. İndi mütəxəssislər getsinlər hesablasınlar, sadaladığım bu texnikanın qiyməti bəlkə də bir neçə milyarddır. … Otuz il ərzində yığdıqları texnikanı 44 gün ərzində məhv etdik. Yoxdur Ermənistan ordusu, yoxdur!" [Azərbaycan, 2020, 2 dekabr].

Əks hücumların başlandığı günlərdən Ali Baş Komandan İlham Əliyevin tutduğu düzgün mövqe və yol Azərbaycan ordusunu anbaan irəliyə – Böyük qələbəyə, Zəfərə apardı. Onun döyüşlərin gedişi zamanı müxtəlif televiziya kanallarına verdiyi müsahibələri, çıxışları, Azərbaycan həqiqətlərini tutarlı dəlillərlə, təkzibolunmaz faktlarla beynəlxalq ictimaiyyətə çatdırması dövlət başçısının nə qədər yüksək səviyyədə hazırlıqlı, qətiyyətli bir lider, sərkərdə olduğunu göstərdi. Bu müsahibələr Prezident İlham Əliyevi beynəlxalq ictimaiyyətin gözündə yüksəklərə qaldırdı, onun nüfuzunu daha da artırdı. Ermənistanın Baş naziri Nikol Paşinyanın verdiyi müsahibələr isə onun çox səviyyəsiz, təsadüfi bir adam olduğunu göstərdi.

44 günlük müharibə Azərbaycanda xalq iqtidar birliyinin yüksək səviyyədə olduğunu göstərdi. Müharibə sübut etdi ki, xalq öz ordusunun, Prezidentinin yanındadır. Gənclərimiz hər an cəbhəyə getməyə, düşmənə ağır zərbələr endirməyə hazırdır. N.Paşinyan bir neçə dəfə ölkə üzrə səfərbərlik elan etsə də, əhalinin çoxu bu çağırışa qoşulmamış, erməni ordusunda çoxlu boşluqlar, çatışmazlıqlar yaranmışdı. Ancaq Azərbaycan Prezidentinin qismən səfərbərlik elan etməsinə baxmayaraq əli silah tuta bilən bütün Azərbaycan əhalisi cəbhəyə göndərilmək üçün xahişlər edir, Ali Baş Komandan İlham Əliyevin yazdığı şanlı zəfər tarixində iştirak etmək istəyirdi.

Buna görə də, bu birlik öz bəhrəsini verdi. Azərbaycan xalqının 30 ildən bəri gözlədiyi gün gəldi. 8 noyabr 2020-ci il Azərbaycan tarixinin şanlı səhifəsinə – Zəfər gününə çevrildi, təqvimdə qızıl hərflərlə yazıldı. Məhz bu gün Azərbaycan mədəniyyətinin beşiyi Şuşa şəhəri işğaldan azad olundu, rəşadətli ordumuzun düşmənin "yenilməz ordusu" üzərində möhtəşəm qələbəsi təmin olundu. Noyabrın 10-da Ermənistan məğlub olduğunu etiraf etməyə məcbur edildi.

Azərbaycan ordusu düşmənə öz gücünü göstərdi, dünyanın ən güclü ordularından biri olduğunu təsdiq etdi. Ordumuz tərəfindən 44 gün ərzində dünya hərb tarixində görünməmiş hərbi əməliyyatlar aparıldı. Müharibənin gedişi zamanı bu əməliyyatlar dünyanın mühüm hərbi akademiyalarında təhlil olunmağa, öyrənilməyə başladı. Azərbaycan xalqının mədəniyyət beşiyi olan Şuşa şəhəri uğrunda döyüşlər xüsusilə diqqətəlayiq oldu. Düşmən, həmçinin dünyanın aparıcı kütləvi informasiya vasitələri Azərbaycan əsgərlərinin vətənpərvərliyini, qəhrəmanlığını, şücaətini, yenilməzliyini etiraf etməyə məcbur oldu, onların döyüş əzmi qarşısında heyrətini gizlədə bilmədi.

Bütün bunlar isə Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik qabiliyyəti sayəsində baş verdi. Bu müharibə onun dünya hərb tarixinə, hərbi işin strategiya və taktikasının incəliklərinə dərindən bələd olan bacarıqlı bir diplomat, dövlət xadimi olduğunu göstərdi. Bu möhtəşəm qələbə ilə Azərbaycan xalqı məğlub xalqdan qalib xalqa çevrildi. Təxminən bir il bundan əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi "Qarabağ Azərbaycandır və nida!" sözləri reallığa çevrildi. 10 dekabr 2020-ci ildə Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında Ali Baş Komandan İlham Əliyev çıxışını bu sözlərlə bitirmişdir: "Öz çıxışımı məşhur kəlamla yekunlaşdırmaq istərdim. Hər kəs bilir ki, Ermənistan rəhbərliyi bir il bundan əvvəl demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Mən isə demişdim ki, "Qarabağ Azər-

baycandır və nida!”. Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır!” [Azərbaycan Respublikasının Baş Prokurorluğu, 2021, s. 193].

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasında igidlik göstərmiş silahlı qüvvələrimizin hərbi qulluqçuları Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamları ilə fəxri adlarla, orden və medallarla təltif olundular. 2020-ci il dekabrın 9-dan 30-dək imzalanan Sərəncamlar ilə 82.670 nəfər Vətən müharibəsi iştirakçısı müxtəlif mükafatlara layiq görüldülər. Təltif olunanlardan 3 nəfərə “Azərbaycanın Milli Qəhrəmanı”, 83 nəfərə “Vətən Müharibəsi Qəhrəmanı” adları verildi. 33 nəfər “Zəfər” ordeni, 204 nəfər “Qarabağ” ordeni, 3 nəfər 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni, 9 nəfər 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni, 331 nəfər 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, 105 nəfər 3-cü dərəcəli “Rəşadət” ordeni, 288 nəfər “Azərbaycan bayrağı” ordeni ilə, 3598 nəfər “Vətən uğrunda”, 622 nəfər “İgidliyə görə”, 1113 nəfər “Döyüşdə fərqlənməyə görə”, 5449 nəfər “Cəsur döyüşçü”, 12.519 nəfər “Cəbrayılın azad olunmasına görə”, 13.953 nəfər “Füzulinin azad olunmasına görə”, 7991 nəfər “Xocavəndin azad olunmasına görə”, 3549 nəfər “Zəngilanın azad olunmasına görə”, 3572 nəfər “Suqovuşanın azad olunmasına görə”, 9376 nəfər “Qubadlının azad olunmasına görə”, 4646 nəfər “Şuşanın azad olunmasına görə”, 5203 nəfər “Kəlbəcərin azad olunmasına görə”, 2267 nəfər “Ağdamın azad olunmasına görə”, 5775 nəfər “Laçının azad olunmasına görə”, 1981 nəfər “Hərbi xidmətlərə görə” medalı ilə təltif olundu [İnternet linki].

Təltif olunanlar arasında çoxlu naxçıvanlı hərbçilər də vardır. Naxçıvandan müharibəyə gedən hərbçilər bir sıra döyüşlərdə iştirak etmiş, Şuşaya qədər döyüş yolu keçmişlər. Naxçıvanlıların döyüşlərdə göstərdiyi qəhrəmanlıq Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək dərəcədə qiymətləndirilmişdir: “Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. ...Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər” (*Azərbaycan*, 2020, 2 dekabr; Əliyev, 2024, s. 403-404). Buna görə də, Prezidentin sərəncamları ilə Əlahiddə Ümumqoşun Ordunun zabitlərindən polkovnik Dadaşov Haxverdi Xudaverdi oğlu “Zəfər” ordeni ilə, polkovnik-leytenant Aslanov Rəşad Əmirbəy oğlu “Qarabağ” ordeni ilə, polkovnik-leytenant Əliyev Anar Vaqif oğlu (ölümündən sonra), mayor Şirinov Elnur Ramiz oğlu, kapitan Babayev Nihad Akif oğlu (ölümündən sonra) və kapitan Şıxnəbiyev Renat Gülməmməd oğlu “Vətən Müharibəsi Qəhrəmanı” fəxri adı ilə, çoxlu sayda hərbçilər isə müxtəlif orden və medallar ilə təltif olundular.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 3 dekabr 2020-ci ildə imzaladığı “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” Sərəncama əsasən İkinci Qarabağ müharibəsində qələbənin şərəfinə 8 noyabr Zəfər Günü elan olunmuş, qeyri-iş günü olmaqla təqvim bayramına çevrilmişdir. Bütün Azərbaycan xalqı bu il Zəfər Gününün 5-ci ildönümünü təntənə ilə qeyd edir.

## ƏDƏBİYYAT

“Azərbaycan” qəz.

Azərbaycan Respublikasının Baş Prokurorluğu. (2021). *Qarabağ Azərbaycandır*. PoliArt.

Əliyev, İ. (2024). *İnkişaf məqsədimizdir. Zəfər* (xüsusi buraxılış). Azərnəşr.

Hacıyev, Q. (2014). *Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi*. Təknur.

http://www.aztv.az/az/news/10915/82-670-herbci-teltif-olunub

**Daxilolma tarixi: İlkin variant 12.01.1986**
**Son variant 09.02.1986**